*Bahar gəlir yaz gəlir, süfrələrə ruzi-bərəkət gəlir*

# Qışın çillələri, ilaxır çərşənbələri

Fəsillərin ən çılğını, günləri ən qısalı, şaxtalı, boranlı, çovğunlu olan qış fəsli başa çatmaq üzrədir. Qədim zamanlardan el arasında bu fəslin də özünəməxsus ayinləri, bayram mərasimləri, el deyimləri var. Bunların hamısı zaman-zaman tarixin süzgəclərindən keçib bu günümüzə gəlib çatmışdır. Folklorşünas alimlər tarixən insanların inanclarına, astronomların müşahidələrinə əsaslanaraq yaranmış xalq deyimlərini, adət-ənənələri, mərasimləri toplamış, şifahi və yazılı şəkildə bu günümüzə gətirib çıxarmışlar.

Yəni qış fəsli lap qədimdə insanlar tərəfindən müəyyən mərhələlərə bölünmüş, bu mərhələlərə Böyük Çillə, Kiçik Çillə, boz ay kimi adlar vermişlər. Qışın ilk mərhələsi Böyük Çillə adlanır. Deyilənlərə görə Çillə sözü «cehl» sözündən olub 40 rəqəmini bildirir. Qışın əvvəli gündüzün ən qısa dövründən başlayaraq bu fəslin ən soyuq vaxtına təsadüf edir. Çox-çox qədimlərdən bu dövr həm də soyuq, çətinliklərlə dolu, ağır bir dövr kimi başa düşülür. İnsanlarsa çətinliyə düşdükdə yalnız agır dərd-bəla ilə üzləşdikdə bu çətinliklərdən, ağır dərd-bəlalardan qurtulmaq, xilas olmaq üçün xüsusi ayinlər icra edir, sonralar belə ayinlər inanclara çevrilir, müxtəlif mərasimlərin yaranmasına səbəb olur.

Qış fəsli yeni təqvimlə dekabrın 21\ 22-də daxil olur və həmin tarixdən fevral ayının 1-dək Böyük Çillə adlanır. Böyük Çillədən sonra fevralın 1-də Kiçik Çillə daxil olur. Kiçik Çillənin ömrü 20 gün çəkir, yəni fevralın 21-dək davam edir.

Böyük Çillənin gedişi, Kiçik Çillənin gəlişi zamanı yolda görüşləri ilə bağlı bir sıra xalq rəvayətləri mövcuddur. Böyük Çillə deyir ki, mən gəlişimlə təndirləri yandırmışam, küplərin, cuvalların ağzını aşdırmışam, kürsüləri qurutmuşam və s. Kiçik Çillə ona istehza ilə gülüb deyir: eh, sən heç nə edə bilməmisən, mən gör indi nə tufan qoparacağam, qazanları ağzı aşağı çevirəcəyəm, küpləri, xaralları boşaldcağam, onların hamısnı üzüqoylu qoyub gedəcəyəm. Böyük Çillə də ona deyir ki, çox da lovğalanma, sən insanları hələ tanımırsan, sənin cəmi 20 günlük ömrün var, özü də üzün yaza doğrudur. Hec onların yanından yel olub ötənməzsən.

Xalq arasında bir çox çillə nəğmələri də yayılmışdır. Böyük Çillə ömrünü başa vurub çıxanda ulularımız deyirmiş ki, torpağın 40-ı çıxdı. Kiçik çillənin 20 günlük vaxtına qışın oğlan cağı da deyirlər. Bu günlərdə sərt soyuqlar, covğunlar, boran və tufanlar da olur, şaxtalı-sazaqlı günləri ilə seçilir. Kiçik Çillənin birinci on günü «Xıdır Nəbi» də adlanır. Ona Xızır Nəbi də deyirlər. Xıdır Nəbi haqqında da bir sıra törənlər, mərasimlər yaşanmaqdadır. Kiçik Çillədə günlər daha sərt, dondurucu olur, necə deyərlər, bir əlində qılınc kimi kəsən şaxta, bir əlində çovğun, boran, div nərəli küləklə gəlir. Necə ki, bu il də insanlar belə bir vəziyyətlə rastlaşdılar, insanı qılınc kimi kəsən şaxta və boranla üzləşdilər.

Kiçik Çillə öz yerini «Boz ay» deyilən baharın (Novruzun) ilaxır çərşənbələrinə verir. Boz ay deyilən müddət bəzi əyalətlərdə Çillə-beçə (10 gün) adlanır. Havaların üzü yaza doğru şıltaq günləri bu dövrə təsadüf edir, həm qış, həm də yaz abı-havasına oxşar günlər başlayır. Hər bir törənin xalq tərəfindən öz yaranışları, mərasimləri var. Bu il ilk çərşənbə fevralın 23-nə təsadüf etmişdir. İlk çərşənbə ta qədimlərdən su çərşənbəsi adlanır. Yəni inanclara görə Novruza doğru təbiətin 4 ünsüründən ilk olaraq su oyanır. Su çərşənbəsinin özünə məxsus ayinləri, bayram mərasimləri, inancları var. Bunların da bir çoxu məlumdur və xalq arasında geniş yayılmışdır.

Su çərşənbəsindən sonrakı çərşənbələr Od, Hava (Külək), Torpaq çərşənbələri gəlir. Hər bir ilaxır çərşənbə ilə bağlı nəğmələr, inanclar, deyim və ifadələr mövcuddur. Hətta ulu əcdadlarımızın erkən təsəvvürləri, yaratdığı mifik sujetlər, obrazlar bu günümüzə qədər də gəlib çıxmışdır. Şərq dünyasında bu mərasimlərin, inancların, deyimlərin, mifik ifadələrin mərkəzində insanların bir arzusu var. Bu arzu qışın qurtarması, çətinliklərin başa çatması, günəşli, güllü-çiçəkli yaza qovuşması ilə bağlıdır. Yazın gəlişi isə 4 ilaxır çərşənbədən sonra, gecə ilə gündüzun tənləşməsi saatında, anında baş verir, insanlar baharın gəlməsini təntənəli şənliklərlə, ruzili-bərəkətli mərasimlərlə qarşılayırlar. Belə mərasimlər martın 21/22-nə təsadüf edir.

**Nadir ATAKİŞİYEV.**

Al günəşdən nur ələnir bağlara,
Göy qurşağı kəmər çəkir dağlara.
Gur şəlalə ayna tutur günəşə,
Tellərini qaya boyu bəzəyir,
Yaz yağışı sığal çəkir torpağa,
Çölü-düzü yaz donuna bələyir.
Yurdumuza bahar gəlir, yaz gəlir.
Şah dağından əsir bahar yelləri,
Yaşıl dərə gül ətrinə bürünür.
Çəmənlərdə gəl-gəl deyir çiçəklər,
Qönçələrə xına yaxır böcəklər.
Bənövşələr vağzalıya rəqs edir,
Yurdumuza bahar gəlir, yaz gəlir.
Hər yanı bürüyüb quşların səsi,
Qaranquşlar ilk baharın müjdəsi.
Durna qatarını salır boynuna,
Körpə balatək alır qoynuna.

## Yaz gəlir

Ana yurdum yaz donunu geyinir,
Sellər-sular şahə qalxır, dillənir,
Yurdumuza bahar gəlir, yaz gəlir.
Yazın gəlişin bayram edir hamı,
Şölə saçar hər evdə bayram şamı.
Süfrəsində çörəyi bol, duzu bol,
Bolluq halal əməyidir elimin.
Zəhmət, hünər meydanıdır bu diyar,
Oğlu, qızı bir-birindən bəxtiyar,
Vətənimlə mən edirəm iftixar.
Azad yurda, azad elə yaz gəlir,
Vətənimə bahar gəlir, yaz gəlir.

**Sədiyar SƏFƏRƏLİYEV.**
**Qəbələ şəhəri.**

## Xocalı

***Qələm dostumuz, «Xocalının səsi» qəzetinin keçmiş redaktoru Qasım Qasımovun əziz xatirəsinə***

İnan ki ürəyim doludur, dolu,
Heç kəs keçə bilmir sən keçən yolu.
Düşmənlər vururdu sağı, həm solu,
Ağappaq qar üstündə ölü, yaralı,
Nələr çəkdin, nələr, nələr Xocalı!
Çox açı-ağrılar oldu bu yerdə,
Onları yazırıq neçə sətirdə.
Dostumuz Qasım da dözmədi dərdə,
Dolaşır bu yerdə ruhu xəyalı,
Nələr çəkdin, nələr, nələr, Xocalı!
Mən də unutmuram səni heç bir an,
Haqqı haqq yoluna yazdırar zaman.
Tək türk dünyasıdır halına yanan,
Mirhəsən də sənə olar vəfalı,
Nələr çəkdin, nələr, nələr, Xocalı!

**Mirhəsən AĞAYEV,**
**Mirzəbəyli kənd tam orta məktəbinin müəllimi.**

## Vergi ödəyicilərinin nəzərinə!

2015-ci hesabat ilinin yekunlarına görə

✦Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini;

✦Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini;

✦Əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini cari ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

Əlavə məlumat üçün 195-1 Çağrı Mərkəzinə və Vergi Ödəyicilərinə Xidmət Mərkəzinə müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyi.**

## *Mənfəət və gəlir vergisi ödəyicilərinin nəzərinə!*

Bildiririk ki, 2015-ci ilin yekununa görə hüquqi şəxslər mənfəət və əmlak vergisi üzrə, fiziki şəxslər gəlir vergisi üzrə bəyannamələrini 31 mart 2016-cı il tarixindən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək dövlət büdcəsinə ödəməlidirlər.

Əlavə məlumat üçün 195-1 Çağrı Mərkəzinə və Vergi Ödəyicilərinə Xidmət Mərkəzinə müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyi.**

## Qəbələ Rayon İcra Hakimiyyəti katirovka sorğusu ELAN EDİR

1. Cari təmir üçün;
2. Bağçalara bərk inventarın alınması;
3. Maşın və avadanlıqların alınması.

Katirovka sorğuları **mart ayının 14-dək** qəbul edilir.

## Qəbələ Rayon İcra Hakimiyyəti katirovka sorğusu ELAN EDİR

1. Kənd, qəsəbə uşaq bağçalarının binalarının əsaslı təmiri;
2. Bərk inventarın alınması:
3. Bağçalara yumşaq inventarların alınması;
4. Maşın və avadanlıqların alınması.

Katirovka sorğuları **mart ayının 14-dək** qəbul edilir.

## ELANLAR

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən 7 fevral 2013-cü il tarixdə Tövlə kənd sakini **İsmayılov Rayuf Məmmədrəhim oğlunun** adına verilmiş AA 014811 №-li, reyestr № 406012000173 **«Torpaq sahəsinin planı və ölçüsü» haqqında sənəd** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ Rayonu Mirzəbəyli kənd sakini **Balakişiyev Ramiz Əlibala oğlunun** adına 12.05.2008-ci il tarixdə verilmiş 1152 №-li RN-406013004393 olan **çıxarış** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Aslan Cəlilova**, qardaşı oğlu **ƏSƏDİN** vaxtsız vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.